***Prezident İlham Əliyevin müdrik liderliyi ilə ölkə iqtisadiyyatının inkişafı son illər daha da böyük vüsət alıb. Faktiki olaraq bütün sahələrdə parlaq uğurlar əldə olunur. Bu uğurları adi, sadə rəqəmlərin dilinə çevirmək istəsək, qısa və konkret belə demək olar: 2021-ci ildə ölkəmizdə ümumi daxili məhsul (ÜDM) 5,6 faiz, sənaye istehsalı 5,2 faiz artmışdır. O cümlədən, artım tempi qeyri-neft sektoru üzrə 7,2 faiz, qeyri-neft sənayesi üzrə 18,9 faiz, kənd təsərrüfatı istehsalında 3,4 faiz təşkil etmişdir.***

# Aqrar sektor daim Azərbaycan dövlətinin diqqətindədir



Biz bu dəfə ölkə iqtisadiyyatının prioritet istiqamətlərindən olan aqrar sahənin uğurları barədə söz açmaq istəyirik. Qeyd edək ki, bu sahə tarixən Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən biri olub və bu gün də belədir. Sevindirici haldır ki, dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə mühüm islahatlar aparılıb və nəticədə ölkəmizdə kənd təsərrüfatı sahəsində ciddi keyfiyyət dəyişiklikləri baş verir.

Görünən budur ki, aqrar sektora ayrılan dövlət və özəl investisiyaların həcmi durmadan artır. Məsələn, ötən il ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 455 milyon manat vəsait sərf edilmişdir ki, bu da 2020-ci illə müqayisədə 13 faiz çoxdur. Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən güzəştli kreditlərin 59 faizi aqrar sektora yönəldilmişdir.



Prezident İlham Əliyev bu il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində jurnalistlərin suallarını əhalinin ərzaq təhlükəsizliyi ilə bağlı məsələyə də toxunub. Dövlətimizin başçısı bildirib ki, bu gün ölkədə ərzaq təhlükəsizliyi ən vacib məsələlərdən biridir. Prezident bu məsələni daim nəzarətdə saxlayır və hökumətə lazımi tapşırıqlar verir.

Məlumdur ki, 2020-ci ilin payızında 30 ilə yaxın işğalda qalan tarixi torpaqlarımız düşməndən azad edilib. Dövlət başçısının tapşırığına uyğun olaraq azad edilmiş torpaqların təkcə bu il təxminən 100 min hektarında əkin işlərinin aparılacaq. Yaxın illər ərzində əkin sahələrinin həcmi, təbii ki, daha da artacaq. Şübhə yoxdur ki, Qarabağda böyük potensiala malik ərazilərin yenidən əkin dövriyyəsinə qaytarılması ölkədə aqrar sektorun inkişafına güclü təkan verəcək.

Bu gün aqrar sahədə çox sayda iri, uğurlu layihələr icra olunur. Bu istiqamətdə görülən işlərin həcmi və vüsəti artır. Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirdi ki, 2021-ci ili də nəzərəçarpan uğurlarla yola salmışdır. Ötən il ölkəmizdə kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcminin dəyəri faktiki qiymətlərlə 9163,4 milyon manat təşkil edib ki, bunun da 50,8 faizi heyvandarlıq, 49,2 faizi bitkiçilik sahələrinin payına düşüb.

Başqa bir göstəricini də qeyd etmək yerinə düşərdi. Belə ki, 2021-ci ildə kənd təsərrüfatı, meşə və balıqçılıq sahələrində yaradılan əlavə dəyərin ÜDM-də payı 5,9 faiz təşkil edib. Ötən ilin yanvar – dekabr ayları ərzində 877,2 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulu ixrac edilib. 2021-ci ildə kənd təsərrüfatı məhsulları ixracının həcmi özündən əvvəlki ilin müvafiq dövrünə nisbətdə dəyər ifadəsində 15,1 faiz artıbdır.

Milli Məclisin komitə sədri sonra qeyd etdi ki, ölkəmizdə aqrar sektorun potensialı kifayət qədər yüksəkdir və bu potensialı hərəkətə gətirmək üçün düzgün və düşünülmüş addımlar atılır. Prezident İlham Əliyev 2 fevral 2021-ci il tarixdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" sərəncam imzalayıb. "Milli Prioritetlər" ölkəmizin qarşıdakı 10 il ərzində bütün sahələrdə, eləcə də aqrar sahədə keyfiyyət etibarilə daha yüksək səviyyəyə çıxmasına şərait yaradacaq.

Təqdirəlayiq haldır ki, Azərbaycan kəndində bu gün modern idarəçilik modelləri yaradılır. Ölkəmizdə "ağıllı kənd" və "ağıllı şəhər"lərin qurulması layihələri böyük uğurla reallaşır. Bu mühüm işlər Azərbaycanın idarəçilik və modern texnologiyaların tətbiqi istiqamətində yüksək intellektual və kreativ ideyalara nə qədər açıq olduğunu bir daha bariz şəkildə nümayiş etdirir.

Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi bu məsələnin həlli istiqamətində konkret addımlar atır. Ölkəmizdə məhsul istehsalını artırmaq üçün fermerlərə dövlət dəstəyi ilbəil artırılır. Məsələn, 2021-ci ildə Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 4543 fiziki və hüquqi şəxsə 71,5 milyon manat məbləğində güzəştli kredit verilib. Bundan 42,7 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 2,9 milyon manatı orta-iri həcmli kənd təsərrüfatı təyinatlı kreditlər, 25,7 milyon manatı mikrokreditlərdir.

Ölkəmizdə 1 yanvar 2020-ci ildən başlayaraq, kənd təsərrüfatının subsidiyalaş-dırılmasında yeni mexanizm tətbiq olunmağa başlanılıb, fermerlərə dövlət yardımı sistemi tam elektronlaşdırılıb. Bu məqsədlə 2019-cu ildə tələb olunan qanunvericilik bazası qəbul edilib, müvafiq elektron sistem və ona daxil olan altsistemlər formalaşdırılıb. Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) bir neçə altsistem fəaliyyət göstərir. Onlardan ən əsası kənd təsərrüfatı subyektlərinin qeydiyyatı, subsidiyalar və heyvandarlıq və süni mayalanma altsistemləridir.

Məlumat üçün bildirək ki, EKTİS-də təkcə fermerlər qeydiyyatdan keçmirlər. Kənd təsərrüfatı subyektlərinin qeydiyyatı altsistemi vasitəsilə fermerlərin, təchizatçıların və tədarükçülərin, habelə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən digər subyektlərin qeydiyyatının aparılması, onların fəaliyyəti üzrə tələb olunan məlumatların və sənədlərin daxil edilməsi, torpaq sahələrinin xəritələşdirilməsi nəzərdə tutulur.

Kənd Təsərrüfatı Nazirliyindən qəzetimizə bildirdilər ki, ötən ilin yanvarından başlayaraq, subsidiya almaq istəyən fermerlər mütləq əvvəlcə EKTİS-dən qeydiyyatdan keçməli, daha sonra isə müvafiq məlumatları subsidiyalar altsisteminə daxil etməlidir. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na uyğun olaraq hazırda aqrar sektora müxtəlif sahələr üzrə subsidiyalar verilir.

Qeyd edək ki, bu ildən pambığa görə yalnız məhsul subsidiyası veriləcək. Məhsul subsidiyası isə hər tona görə 100 manatdan 170 manata qaldırılıb. Əlavə olaraq şirkətlər pambığın fermerdən alış qiymətinin hər sorta görə 50 manat artırıblar. Məhsul subsidiyası almaq üçün fermerlərdən torpaq üzərində mülkiyyət hüququnu təsdiqləyən sənəd tələb olunmur.

Yeri gəlmişkən, Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) 2021-2022-ci illər payızlıq əkinlərə görə subsidiyaların ödənişini davam etdirir. Belə ki, bu il təkcə aprelin 7-də AKİA tərəfindən payızlıq əkinlərə görə 6424 fermerə, ümumilikdə, 12 milyon 195 min manat subsidiya ödənişi həyata keçirilib. Bu gün ödənilən subsidiyalar 59 min 709 hektar əkin sahəsini əhatə edir. Bununla da, 2021-2022-ci il üçün ümumilikdə 768 min 520 hektar əkin sahəsi üzrə 235 min nəfərdən çox fermerə payızlıq əkin subsidiyası ödənilib. Ödənişin ümumi miqdarı 151 milyon 700 min manatdan çoxdur.

AKİA rəsmisi vurğuladı ki, subsidiyalar kənd təsərrüfatı məhsulları istehsalçılarının "Fermer kartı"na köçürülür. Fermerlər qanunvericiliyə uyğun olaraq, karta köçürülmüş vəsaitin 25 faizini bankomatlar vasitəsilə nağdlaşdıra, 75 faizini isə qeyri-nağd şəkildə kənd təsərrüfatı istehsal vasitələri, o cümlədən mineral gübrə, pestisid, bihomus, herbisid, toxum ala bilər, həmçinin meyvə bağlarında müasir suvarma sistemlərinin alınmasına və qurulmasına sərf edə bilərlər.

Bəli, Azərbaycan kəndi daim dövlətimizin diqqətindədir. Ölkəmizdəki fermer və pay torpaqçıları dövlətimizin onlara göstərdikləri daimi diqqət və qayğıdan razılıq edirlər. Quba rayonun Birinci Nügədi kəndindən olan fermer Aslan Yusifov qeyd etdi ki, bu gün torpağı əkib becərən şəxslər dövlətimizin hər cür dəstəyiyini hiss edirlər. Bu isə onları torpaqdan daha çox fayda və səmərə götürməyə sövq edir.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***